

# NƏHAYƏT

## İlham Əliyev Xankəndidə Azərbaycan Bayrağını ucaltdı

**Qalib ölkə, müzəffər xalq!**

*Necə də gözəl səslənir!*

*Bu ifadələrin həsrətini nə qədər çəkmişik...*

Həm də qəzəblə, hiddətlə, sınıq ürəklə.

Çünki özgələrinin hesabına bizim torpaqları işğal edənlər utanmadan, həyasızcasına özlərini "qalib millət", "qalib dövlət", ordularını isə "məğlubedilməz ordu" adlandırırdılar.

**Nəhayət, haqq, ədalət öz yerini tutdu!**

**Nəhayət, biz də ən müqəddəs arzu və istəyimizə çatdıq!**

**Nəhayət, ilahi ədalət İlham Əliyevin əli və Tanrının köməyi ilə bərpa olundu!**

- Bu gün biz fəxr və qürurla özümüzə "müzəffər xalq" deyə bilirik.
- Bu gün biz "qalib dövlət" adına layiqik.
- Bu gün biz "qalib ölkə" kimi dünyada tanınırıq!

**Bütün bunlara görə isə Müzəffər Ali Baş Komandanımıza, bu möhtəşəm Zəfərin baş müəllifi cənab İlham Əliyevə minnətdarıq!**

❖❖❖

Ayının min oyunu var - bir armudun başında!

Qədim Azərbaycan atalar sözüdür!

Ermənilər Azərbaycandan torpaq qoparmaq üçün min bir oyundan çıxdılar:

- Əvvəlcə keçmiş DQMV-nın "sosial-iqtisadi cəhətdən geri qaldığını" bəhanə gətirərək narazılıqlarını "ifadə etmək" üçün Xankəndidəki meydana çıxdılar.

*Moskva onların bu etirazını "rəğbətlə" qarşıladı...*

- Sov.İKP MK və SSRİ Nazirlər Soveti bununla bağlı qərar verdi.

*Haylar qane olmadılar.*

- Hüquqlarının pozulduğunu bildirdilər.

*Moskva yenə könüllərini oxşamaq üçün "xüsusi idarəetmə komitəsi" yaratdı.*

**Faktiki olaraq bu, DQMV-nın Azərbaycandan qoparılması demək olsa da, yenə qane olmadılar.**

- Bu dəfə qarınlarının əsl ağrısını bildirdilər - "miatsum"!

*Bu separatizmə isə Azərbaycan razı olmadı!*

- Moskvanın "yumşaqlığından" və dəstəyindən ruhlanan ermənilər keçmiş DQMV ərazisindəki Azərbaycan kəndlərinə hücum edərək azərbaycanlıları dədə-baba torpaqlarından çıxarmağa başladılar.

*Azərbaycan buna ciddi müqavimət göstərdi.*

- Əvvəlcə söyüş, sonra isə daş davası başladı!

*O dövrkü SSRİ rəhbərliyindən ermənilərə və Ermənistana "dayan", "dur" deyən olmadı.*

**Əslində, Qorbaçov və onun ermənipərəst ətrafı "miatsum" çağırışına açıq və gizli şəkildə dəstək verdilər!**

**Bu minvalla ermənilər qudurdular!**

Cəzasızlıq şəraitindən ruhlanan haylar Azərbaycan ərazilərinə silahlı təcavüzə başladılar!

*Mərkəz yenə separatçıların başını sığalladı.*

Azərbaycanın haqq səsini eşidən isə olmadı!

**Bu dəfə 366-cı sovet alayını erməniləşdirərək Azərbaycanın üzərinə - ermənilərin köməyinə göndərdilər!**

Əlbir və dilbir şəkildə Xocalı soyqırımını törətdilər!

Bir gecədə 613 nəfər dinc sakini qətlə yetirdilər!

Qadınlara, uşaqlara, qocalara rəhm etmədilər...

Qarşılarına çıxanı məhz azərbaycanlı olduğuna görə öldürdülər!

XX əsrin dəhşətli Xocalı qətliamını törətdilər!

*Nə qarşılarını alan oldu, nə əməllərinə hüquqi qiymət verən tapıldı...*

*Qudurmuşlar daha da azğınlaşdılar!*

Havadarlarına, dostlarına arxalanaraq əvvəlcə DQMV-ni, sonra isə ona bitişik olan 7 rayonu işğal etdilər!

Bir milyondan çox azərbaycanlını doğma el-obalarından qovaraq qaçqına, məcburi köçkünə çevirdilər!

20 mindən çox Azərbaycan vətəndaşını vəhşicəsinə öldürdülər!

*Əsirlərə, girov götürdükləri mülki vətəndaşlara olmazın işgəncələr verdilər, əllərinə keçən azərbaycanlılarla qeyri-insani rəftar edərək müxtəlif üsullarla öldürdülər, meyitlərini isə kütləvi məzarlıqlarda gizlətdilər!*

**Dünya kar, kor və lal oldu!**

**Bütün bunları görsə də, bilsə də, eşitsə də, özünü görməzliyə, qanmazlığa, eşitməzliyə vurdu!**

*BMT-nın Təhlükəsizlik Şurası işğal faktını təsdiqləyərək, "erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxması üçün" 4 qətnamə qəbul etdi.*

Bu qətnamələrin çürük qoz qədər dəyəri olmadı.

Nə icra edildi, nə erməniyə hər hansı formada təsir və təzyiq göstərildi, nə də sanksiya tətbiq olundu!

*Münaqişənin guya "sülh yolu ilə" həlli üçün ATƏT-in Minsk qrupu yaradıldı!*

27 il ərzində həmsədrlər gəldilər, yedilər-içdilər, getdilər!

**Nə sülh müqaviləsi bağlandı, nə də bir qarış ərazi dinc yolla geri qaytarıldı!**



Çünki beynəlxalq hüququn, konvensiyaların, beynəlxalq təşkilatların bir meyarı, bir ölçü-biçisi, bir yanaşması vardı:

*İkili standartlar!*

Dünyanın digər yerlərindəki bu tip hadisələr bir cür qiymətləndirilirdi, Azərbaycanla Ermənistan arasındakı münaqişəyə başqa prizmadan yanaşılırdı:

**İkili standartlar prizmasından!**

*Son sözləri isə belə oldu:*

- Öz aranızda razılığa gəlin!
- Siz hansı razılığa gəlsəniz, biz onu dəstəkləyəcəyik!
- Yeni reallıqlarla hesablaşın!

Gözlərini qan örtmüş ermənilər isə bir addım belə geri çəkilmək fikrində deyildilər.

*Hətta dünyada mövcud olan ən yüksək statusla belə razılaşmadılar...*

❖❖❖

Sovet dövründə Xankəndidəki ermənilərə hər cür şərait yaradılmışdı.

Vilayətdəki bütün rəhbər orqanların, qurumların başçıları ermənilər idilər. Azərbaycan heç zaman ayrı-seçkilik salmırdı.

Ermənilər isə...

**"Böyük Ermənistan" xülyasına uyan, "miatsum" hərəkatına qoşulan, Azərbaycan xalqının çörəyinə nankor çıxan ermənilər bizə xəyanət etdilər!**

*Müstəqillik yolu tutan Azərbaycanın ən çətin, ən ağır və taleyüklü günlərində hakimiyyət iddiasına düşən, şəxsi maraqlarını ümummilli mənafedən üstün tutan AXC-Müsavat cütlüyü də xəyanətkar mövqe tutdu!*



Onlar iqtidara gəlmək üçün ölkədə xaos və anarxiya yaratdılar, idarəetməni iflic vəziyyətinə saldılar, torpaqları müdafiə etməli olan özünümüdafiə batalyonlarını Bakıya gətirərək parlament yolu ilə dövlət çevrilişi törətdilər...

**İqtidara gəldikdən sonra isə nə ordu qurdular, nə də torpaqların müdafiəsini təşkil etdilər.**

*Əksinə, naşı, təcrübəsiz və səriştəsiz hərəkətləri ilə yeni ərazilərin işğalına əlverişli şərait yaratdılar.*

*Faktiki olaraq ermənilərin əlinə oynadılar.*

❖❖❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndiyə qürurla, qalib sərkərdəyə xas fərəhlə daxil oldu!**

Separatçıların yuvasında Azərbaycan bayrağını öz əlləri ilə ucaltdıqdan sonra Azərbaycan xalqına tarixi müraciətini etdi.

*İkiəsrlik münaqişəyə zəfərlə son qoyulmasından qaynaqlanan bu müraciət Azərbaycan tarixinin qızıl səhifəsində daim, əsrlərboyu yaşayacaqdır!*

**İlham Əliyev dedi:** *"İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".*

**Azərbaycan xalqı sevimli Prezidentinin, məğrur Sərkərdəsinin rəhbərliyi ilə ən böyük arzusuna, istəyinə qovuşdu.**

Həm də necə!

- Bütün dünya "dəmir yumruğ"un gücünə heyran oldu!
- Bütün dünya Müzəffər Ali Baş Komandan İlham Əliyevin möhtəşəm zəfərinə valeh oldu!
- Bütün dünya Azərbaycan Ordusunun qüdrətinə şahid oldu!
- Bütün dünya separatizm üzərindəki tam qələbəni gördü!
- Bütün dünya separatizmə qalib gəlməyin Azərbaycan modeli ilə tanış oldu!
- Bütün dünya Azərbaycan xalqının qəhrəmanlığını, separatizmin iflasını, ikili standartların süqutunu razılıqla seyr etdi!

**Bütün bunların hamısını Azərbaycan Prezidenti İlham Əliyev etdi!**

**Sözü ilə əməli bir olan Azərbaycan Prezidenti!**

**Etdi və dünyaya göstərdi!**

*Fransada startı verilən separatizm Xankəndidə torpağa gömüldü!*

*Hər şey Azərbaycan xalqının istədiyi, İlham Əliyevin dediyi kimi oldu!*

❖❖❖

**Bugünkü şirin qələbəyə böyük acılardan keçib gəlmişik!**

Qurbanlar vermişik, kənd və şəhərlərimiz xarabazara çevrilib, çoxsaylı itkilərimiz olub.

Amma sonda qalib olmuşuq!

Heç zaman inamımızı itirməmişik!

İnanmışıq ki, İlham Əliyev bizi vəd etdiyi qələbəyə çatdıracaqdır!

**Bu məqamı Prezident İlham Əliyev Xankəndidəki müraciətində xüsusi vurğuladı:** *"Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".*

**Biz təkcə qələbəmizlə deyil, bu qələbənin baş müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevlə də daim fəxr edib, qürur duyuruq!**

- İlham Əliyev XXI əsr dünyası ilə dil tapıb danışa bildi!
- İlham Əliyev dünyanın söz sahibi olan dövlətləri ilə münasibətlər quraraq müstəqil Azərbaycanın maraqlarını təmin etməyi bacardı!
- İlham Əliyev ikili standartları məharətlə zərərsizləşdirdi, onun mənfi fəsadlarından yayındı.
- İlham Əliyev kiçik Azərbaycanı böyük dövlətlərlə bir sırada qərarlaşdırdı!
- İlham Əliyev Azərbaycanın ən böyük problemini ən uğurlu formada, Azərbaycanın maraqlarına heç bir xələl gətirmədən məharətlə həll etdi!

**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**